**2026-cı ilin fevral ayı ərzində qazpaylayıcı şəbəkəyə texniki xidmət üzrə keçirilmiş monitorinqin nəticələrinə dair məlumat**

Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Enerji tənzimləmə və monitorinq departamentinin əməkdaşları tərəfindən 2026-cı ilin 5 fevral tarixindən 9 mart tarixinədək müddətdə "Azəriqaz" İstehsalat Birliyinin (bundan sonra – qazpaylayıcı sistem operatoru) Sumqayıt Regional Qaz İstismar İdarəsinin (bundan sonra – Sumqayıt RQİİ) xidmət sahələrində qazpaylayıcı şəbəkəyə texniki xidmətin həyata keçirilməsinə monitorinq keçirilmişdir.

Monitorinq nəticəsində qazpaylayıcı sistem operatoru tərəfindən Sumqayıt RQİİ-nin xidməti ərazisi üzrə qazpaylayıcı şəbəkədə qaz sızmalarının vaxtında aradan qaldırılmadığı, həmçinin istismar olunan qaz tənzimləyici qurğulara qanunvericilikdə nəzərdə tutulmuş müddətlərdə texniki xidmətin həyata keçirilmədiyi və nəticələrinin rəsmiləşdirilmədiyi müəyyən edilmişdir.

Aşkar olunmuş pozuntuların aradan qaldırılması məqsədilə qazpaylayıcı sistem operatoruna icrası məcburi olan göstəriş verilmişdir.